# İlk Avropa Oyunları

Yayımlanıb ölkə-ölkə Yer üzünü dolanacaq,
Milyon-milyon insanların ürəyində iz salacaq,
Xalqımızın tarixinə qızıl xətlə yazılacaq,
Yeni tarix dastanıdır ilk Avropa Oyunları.

Qəhrəmanlıq tariximiz, mədəniyyət izimizdir,
Şeyx Nizami, Ulu Heydər örnək olan irsimizdir,
Qobustanda qayalara həkk olunmuş səsimizdir,
Güc, iradə meydanıdır ilk Avropa Oyunları.

Meydanlarda qaliblərin sevinc dolu göz yaşıdır,
İnsanların insanlığa çağırışı, barışıdır,
Bayraqları uca edən güclülərin yarışıdır,
İnsanlığın nişanıdır ilk Avropa Oyunları.

Açılışı, bağlanışı gerçək, canlı əfsanədir,
Bəşəri dost-qardaşlığa səsləyən himn-təranədir,
Söylənəcək zaman-zaman bənzərsizdir, yeganədir,
Gözəlliklər ümmanıdır ilk Avropa Oyunları.

Yarış İlham idrakının bəşər üçün töhfəsidir,
Yarış Mehriban xanımın dünya həmrəylik səsidir,
Yarış idman bayramıdır,  vətənin salnaməsidir,
Azərbaycan ünvanıdır ilk Avropa Oyunları.

**Oqtay ZƏNGİLANLI.**